# Getdikcə daha çox Çin şirkəti Azərbaycana investisiya qoymaq qərarına gəlir

**Azərbaycanla Çin arasında investisiya tərəfdaşlığının dərinləşdirilməsi istiqamətində göstərilən səylər nəticəsində dost ölkənin şirkətləri ilə sənaye, "yaşıl enerji", nəqliyyat, kənd təsərrüfatı, informasiya texnologiyaları, ipəkçilik və digər sahələrdə birgə layihələr həyata keçirilir. İki ölkə arasında ali səviyyədə keçirilən görüşlər, eləcə də iqtisadiyyatın ayrı-ayrı sahələrinin rəhbərləri və mütəxəssislərinin sıx əlaqələri bu əməkdaşlığı daha da genişləndirir.**



Ölkəmizdə 320-dən çox Çin şirkəti adıçəkilən və digər sahələrdə fəaliyyət göstərir. Prezident İlham Əliyevin təkcə bu ilin aprel ayında Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində əməkdaşlıq və tərəfdaşlığa dair neçə-neçə sənəd imzalandı. Xüsusilə Birgə Bəyanatın imzalanması əlaqələrin daha da dərinləşməsi və şaxələnməsinə geniş yol açdı.

Həmin sənədlərdən 6-sı bərpaolunan enerji sahəsində əməkdaşlığa aiddir. Energetika Nazirliyinin məlumatına görə, bu sənədlər ümumilikdə 260 meqavat gücündə günəş-elektrik stansiyaları, 100 meqavatlıq üzən günəş-elektrik stansiyası, 30 meqavat gücündə batareya enerji saxlanc sistemi, dənizdə minimum 2 qiqovat gücündə külək-elektrik stansiyasının inşası, daha 2 meqavat gücündə külək enerjisi layihəsinin inkişafı, eləcə də bərpaolunan enerji və elektrik enerji sisteminin planlaşdırılması üzrə əməkdaşlığı əhatə edir.

Bu günlərdə dövlətimizin başçısının Çinə işgüzar səfəri zamanı həmin ölkənin bir sıra tanınmış şirkətlərinin rəhbərləri ilə görüşləri isə iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə əməkdaşlıq əlaqələrinin daha da genişlənməsinə təkan verəcək. Belə ki, Prezident İlham Əliyev avqustun 31-də Tiencin şəhərində "Sichian Sunsync Photovoltaic Technology Co" şirkətinin təsisçisi və sədri Sie İ ilə görüşüb. Görüşdə ölkəmizlə şirkət arasında gələcək əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb. Ələt Azad İqtisadi Zonasında yaxın gələcəkdə günəş panellərinin istehsalı ilə bağlı ən müasir texnoloji standartlara cavab verəcək müəssisənin yaradılması ilə əlaqədar məsələlər müzakirə olunub. Vurğulanıb ki, burada istehsal ediləcək məhsulların böyük hissəsinin dünya bazarlarına ixracı nəzərdə tutulur.

Prezidentimiz "CCCC" ("China Communications Construction Company") şirkətinin sədri Son Haylian ilə də görüşüb. Görüşdə Trans-Xəzər nəqliyyat dəhlizinin inkişafı və Bakı Beynəlxalq Dəniz Limanının ikinci mərhələsində bu şirkətin iştirakına dair fikir mübadiləsi edilib. Şirkətin fəaliyyət sahələrinə daxil olan istiqamətlər - nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, o cümlədən metro stansiyalarının tikintisi, avadanlıq istehsalı və şəhər nəqliyyatının kompleks inkişafı ilə bağlı məsələlər müzakirə olunub. S.Haylian Abşeron yarımadasında göllərin təmizlənməsi və bərpası ilə əlaqədar konseptual təkliflər təqdim edəcəklərini bildirib.

Daha bir görüş "CETC" (China Electronics Technology Group Corporation) korporasiyasının baş direktoru Cu Pen ilə olub. Görüşdə rəqəmsal texnologiyalar vasitəsilə milli idarəetmə sistemi və idarəetmə qabiliyyətlərinin müasirləşdirilməsi, rəqəmsal iqtisadiyyatın inkişafı, milli şəbəkə təhlükəsizliyinin təmin olunması, kibertəhlükəsizlik və data tətbiqləri sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

Prezidentimiz Tiencin şəhərində "China Energy Engineering Corporation Limited" ("Energy China") şirkətinin prezidenti və sədri vəzifəsini icra edən Ni Cen ilə də görüşüb. Qeyd edək ki, bu şirkət indi Azərbaycanda yaxından tanınır. Çünki "Energy China" ölkəmizlə, o cümlədən SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) ilə alternativ və bərpaolunan enerji layihələrini əhatə edən səmərəli əməkdaşlıq qurub.

Görüşdə də bu Çin şirkətinin Azərbaycanla məhz günəş-elektrik stansiyalarının, dənizdə külək enerjisi stansiyalarının tikintisi sahəsində əməkdaşlığı vurğulanıb. Ni Cen ölkəmizdə yeni layihələr, o cümlədən tullantı sularının təmizlənməsi, emalı və təkrar istifadəsi, su ehtiyatlarının idarə edilməsi ilə bağlı əməliyyatların optimallaşdırılması, həmçinin su hövzələrində fotovoltaik elektrik panellərinin birgə inşası layihələrini həyata keçirməkdə maraqlı olduqlarını bildirib.

Xatırladaq ki, "Energy China" bu ilin iyun ayında Bakı Enerji Həftəsində də təmsil olunmuşdu. Şirkətin vitse-prezidenti Van Bo bildirmişdi ki, hazırda çinli mütəxəssislər Xəzər dənizində 200 MVt gücündə külək enerjisi istehsalı ilə əlaqədar araşdırma aparırlar: "Araşdırma başa çatdıqdan sonra sərmayə yatırılması barəsində qərar qəbul ediləcək. Azərbaycan Energetika Nazirliyi ilə günəş və dəniz külək enerjisi sahəsində investisiya üzrə əməkdaşlıq əlaqələrimiz indiyə kimi davam edir. Energetika Nazirliyi və digər enerji qurumları ilə Azərbaycanda daha çox bərpaolunan enerji mənbələrini qəbul etmək üçün elektrik şəbəkəsinin təkmilləşdirilməsini müzakirə edirik. Biz artıq Füzulidə 160 MVt gücündə günəş enerjisi layihəsini irəli sürmüşük".

Onu da qeyd etmək yerinə düşər ki, Çinin Sinxua Dövlət İnformasiya Agentliyi bu günlərdə Biləsuvar GES-dən xüsusi reportaj hazırlayıb. "Çin Biləsuvar GES vasitəsilə Azərbaycanın "yaşıl ölkə"yə çevrilməsinə kömək edir" adlı reportajda qeyd olunur ki, bu obyektin tikintisində çinli mütəxəssislər azərbaycanlı həmkarları ilə birlikdə çalışırlar. "GES layihəsi Azərbaycanın Biləsuvar rayonunda həyata keçirilir və quraşdırılmış gücünə görə ölkədə ən böyük elektrik stansiyası olacaq. Onun sahəsi təxminən 1454 hektar təşkil edəcək ki, bu da 2036-dan çox standart futbol meydançasına bərabərdir", - deyə müəllif oxucularına stansiya haqqında məlumat verib.

Çinin istər tanınmış şirkət rəhbərləri, istərsə də nüfuzlu mütəxəssisləri və media nümayəndələri ölkəmizdə əlverişli investisiya mühiti olduğunu vurğulayırlar. Beləliklə, Azərbaycanla Çin arasında mövcud olan strateji əlaqələri nəzərə alaraq getdikcə daha çox Çin şirkəti ölkəmizə investisiya qoymaq qərarına gəlir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 2 sentyabr (№185).- S.8.